DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!

AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!

# YAP-ın namizədi Nəsib Məhəməliyevin təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşləri keçirilib





9 fevral tarixində Milli Məclisə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) 109 saylı Balakən seçki dairəsi üzrə namizədi Nəsib Məhəməliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam edir. Növbəti belə görüş rayonun Qullar kəndində keçirilib.

Görüşdə çıxış edən namizədin vəkilləri və təşviqat qrupunun üzvləri parlament seçkilərinin əhəmiyyəti və Nəsib Məhəməliyevin fəaliyyəti barədə geniş məlumat verərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər qarşısında çıxışında əvvəlcə Azərbaycanda həyata keçirilən islahatlar barədə məlumat verən Nəsib Məhəməliyev deyib ki, ölkəmiz zamanın çağırışları ilə səsləşən islahatları uğurla həyata keçirməklə iqtisadi sahədə dinamik inkişafa nail olub. Namizədin sözlərinə görə, son 16 ildə milli iqtisadiyyatımız 3,3 dəfə genişlənib ki, bu da dünya üzrə ən yaxşı göstəricilərdən biridir. Azərbaycan 2019-cu ildə də islahatlar kursuna sadiq qalıb və müxtəlif sahələri əhatə edən islahatlar həyata keçirilib. Bunun nəticəsində də iqtisadi aktivliyin artırılmasına, şəffaflığın təmin olunmasına, biznes mühitinin daha da optimallaşdırılmasına imkan yaranıb.



Daha sonra fəaliyyəti haqqında yüksək fikirlər səsləndirdiklərinə və hərtərəfli dəstəyə görə seçicilərə minnətdarlıq edən Nəsib Məhəməliyev yenidən Milli Məclisin deputatı seçiləcəyi təqdirdə yenə də daim seçicilərinin yanında olacağını və onların qayğılarına həssaslıqla yanaşacağını vurğulayıb.

Görüşdə çıxış edən seçicilər - Elman Xipiyev, Mahir Hacıyev, Rasim Göylərov, Arzu Qocayev, Elçin Musayev və digərləri Nəsib Məhəməliyevin ən fəal millət vəkillərindən biri olduğunu ifadə edərək, qarşıdan gələn parlament seçkilərində mütəşəkkil qaydada seçki məntəqələrinə gedib YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

Nəsib Məhəməliyevin daha bir görüşü rayonda ilk dəfə səs verəcək gənclərlə keçirilib. Görüşdə ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasəti barədə məlumat verilib və qeyd olunub ki, gənclər ölkəmizdə ictimai-siyasi proseslərdə fəal iştirak edirlər. Çıxış edən gənclər - Zeynal Əmirəliyev, Rasim Zeynalov, Əli Adıgözəlov, Orxan Əliyev, Emiliya Əmiraslanova, Ləman Seyidova, Vüsalə Mikayılova və digərləri gənclərin parlament seçkilərində fəal iştirak edəcəklərini və YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# Deputatlığa namizəd Nizami Cəfərov Ağstafanın Qıraq Kəsəmən və Eynallı kəndlərində seçicilərlə görüş keçirib





Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa seçki dairəsindən Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş Nizami Cəfərov Ağstafa rayonu Qıraq Kəsəmən və Eynallı kəndlərində seçicilərlə görüş keçirib.

Görüşdə çıxış edən Nizami Cəfərov ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər haqqında danışıb, əhalinin rifah halı, sakinləri narahat edən məişət problemləri ilə maraqlanıb. Yenidən millət vəkili seçiləcəyi təqdirdə rayon ərazisində görüləcək işlər haqqında məlumat verən deputatlığa namizəd daha güclü Azərbaycan naminə hər kəsi ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha da sıx birləşməyə və 9 fevral - seçki günü fəal olmağa dəvət edib.

Öz növbəsində seçicilər qarşıdan gələn parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini qeyd ediblər.

# 29 saylı Səbail seçki dairəsindən YAP-ın namizədi Aytən Hüseynova rayonun şəhid ailələri ilə görüşüb





Fevralın 9-da keçiriləcək parlament seçkilərində 29 saylı Səbail seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Aytən Hüseynova fevralın 3-də Səbail rayonunda şəhid ailəsi üzvləri ilə görüşüb.

Çıxış edən YAP namizədinin səlahiyyətli nümayəndəsi Zəfər Bayramov qarşıdan gələn və ictimai-siyasi əhəmiyyətinə görə mühüm hadisə olan 9 fevral parlament seçkiləri və Səbail rayonunda seçki öncəsi aparılan təbliğat-təşviqat işləri haqqında danışıb.

Şəhid ailələri ilə görüşdən son dərəcə məmnun olduğunu xüsusi qeyd edən YAP-ın namizədi Aytən Hüseynova Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərimizin əziz xatirəsini böyük ehtiram və məhəbbətlə yad edərək bildirib ki, biz bugünkü firavan və rahat həyat şəraitimiz, müstəqil dövlətçiliyimiz üçün qəhrəman şəhidlərimizə minnətdar olmalı, onların əbədiyaşar xatirəsini əziz tutmalı, şəhid ailələrinə daim ən yüksək diqqət və qayğıyla yanaşmalı və onların həyat şəraitinin yaxşılaşması üçün əlimizdən gələni əsirgəməməliyik.

Seçicilərin təkliflərini diqqətlə dinləyən A.Hüseynova şəhid ailələrinə səmimi görüş üçün ürəkdən təşəkkür edib və şəhid ailələri ilə görüşlərin mütəmadi şəkildə bundan sonra da təşkil olunacağını bildirib.

**MÜŞFİQƏ**

# YAP Qaradağ rayon təşkilatında ilk partiya təşkilatları sədrləri və gənclərin iştirakı ilə toplantı keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatında ilk partiya təşkilatlarının sədrləri və gənclərin iştirakı ilə toplantı keçirilib. Partiyanın rayon təşkilatının sədri Aydın Hüseynov çıxış edərək fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, 11 saylı Qaradağ seçki dairəsi və 12 saylı Qaradağ-Binəqədi-Yasamal dairəsi üzrə YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülən şəxslərlə seçicilərin görüşləri mütəmadi olaraq keçirilir. Artıq bütün qəsəbələrdə belə görüşlər təşkil edilib, partiyamızın seçki platformasını əks etdirən bülletenlər seçicilərə paylanılıb və bu proses indi də davam etməkdədir. Qərargahda könüllülərdən formalaşan qruplar tərəfindən seçicilərə seçkilər barədə məlumatlar verilir.



YAP-ın seçki platforması barədə danışan təşkilatın sədri bildirib ki, vətəndaşların hüquq və azadlıqlarının qorunması partiyamızın həmişə prioritet vəzifələrindən olacaq, ölkəmizin iqtisadiyyatının hərtərəfli inkişafı üçün sahibkarlara dəstək, insanların sosial rifahının yaxşılaşdırılması siyasəti davam etdiriləcək, əmək haqları, pensiyalar və müavinətlər müntəzəm olaraq artırılacaq, təhsilin səviyyəsinin artırılması üçün davamlı addımlar atılacaq. Bütün bunlarla yanaşı ölkəmizin dinamik inkişafı naminə həyata keçirilən tədbirlər davam etdiriləcək.

Qeyd olunub ki, xalqımızın etimadını uğurlu fəaliyyəti ilə doğruldan partiyamız xalqa xidmət siyasəti ilə seçilir və seçicilər tərəfindən yekdilliklə dəstəklənir: **"Növbəti seçkilərdə də seçicilərin dəstəyini alacağımıza inanırıq. Çünki partiyamızın qurucusu, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və bu siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edir, ölkəmizin uğurları artır və xalqımız bu siyasəti birmənalı şəkildə dəstəkləyir".**

# Deputatlığa namizəd Məlahət İbrahimqızı seçicilərlə növbəti görüşlərini keçirib





Yeni Azərbaycan Partiyasının (YAP) 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızı parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşlərini 1-ci mkr., A.Məhərrəmov-27 və M.Cəfərov-10 ünvanlarında keçirib.

Görüşlərdə deputatlığa namizəd Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərinməzmunlu islahatlar haqqında ətraflı məlumat verib. M.İbrahimqızı söyləyib ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində də sosial məsələlərin həlli xüsusi yer tutur.

Azərbaycanın hüquqi-demokratik dövlət olduğunu deyən Məlahət İbrahimqızı bildirib ki, ölkəmizdə bütün seçkilər azad və demokratik keçirilib. Budəfəki parlament seçkilərinin azad və şəffaf keçirilməsi üçün dövlət tərəfindən lazımi tədbirlər görülüb, namizədlər üçün bərabər şərait yaradılıb.

Bakı şəhərində abadlıq və quruculuq işlərinin böyük vüsət aldığını deyən M.İbrahimqızı bu prosesin Nəsimi rayonunda da uğurla davam etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda abadlıq işlərinin görülməsi, abad həyətlərin yaradılması insanlar tərəfindən böyük rəğbətlə qarşılanır.

M.İbrahimqızı bu uğurların davamlı olması üçün daha güclü Azərbaycan naminə seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, qarşıdan gələn seçkilərdə də YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

Eyni zamanda, görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib. Seçicilər bir sıra sosial, kommunal məsələlərin həlli ilə bağlı fikirlərini bildiriblər. Deputatlığa namizəd Məlahət İbrahimqızı qaldırılan məsələlərin təhlil olunaraq həll edilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

# YAP Nəsimi rayon təşkilatında seçki kampaniyası ilə bağlı toplantı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının qərargahında fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar səsvermə günü məntəqələrdə müşahidə aparacaq müşahidəçilər, məşvərətçilər və rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrləri ilə iclas keçirilib.

Tədbiri açan YAP Nəsimi rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı parlament seçkiləri ilə bağlı rayon təşkilatı tərəfindən görülən işlər haqqında məlumat verib. M.İbrahimqızı seçki günü məntəqələr və dairələrdə səsvermənin gedişini izləmək üçün Yeni Azərbaycan Partiyası tərəfindən təyin edilmiş müşahidəçi və məşvərətçilərə vəzifələri və hüquqları haqqında ətraflı məlumat verib.

Qeyd olunub ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərin şəffaf, aşkarlıq və demokratiya şəraitində keçirilməsi üçün müşahidəçilərin və məşvərətçilərin də üzərinə çox ciddi məsuliyyət düşür. Vurğulanıb ki, müşahidəçilərin və məşvərətçilərin Seçki Məcəlləsində təsbit olunmuş hüquq və vəzifələri, səlahiyyətləri var. Bu mənada müşahidəçilər və məşvərətçilər üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməli, obyektiv monitorinq aparmalıdırlar.

Görüş müzakirələr şəklində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.